**050807 – “Sosial iş” ixtisasının qısa təsviri**

Bu ixtisasın mahiyyəti xüsusi köməyə ehtiyacı olan, yoxsul, zorakılığa məruz qalmış insanlar, valideyn himayəsindən məhrum olmuş uşaqlara kömək etmək, onların problemlərini həll etmək, maraqlarını müdafiə etmək, psixoloji yardımlar göstərmək və bu təbəqənin sosial rifahını yaxşılaşdırmaqdan ibarətdir. Sosial iş ixtisası üzrə təhsil proqramını mənimsəyən məzunlar ixtisas biliklərindən əlavə, həm də aşağıdakı bir sıra ümummədəni və peşə kompetensiyalarına (səriştələr) yiyələnirlər:

- İcma, dövlət, milli və beynəlxalq səviyyələrdə sosial ədalətsizliyin sistemli səbəblərini qiymətləndirmək;
- Ailə və icma sistemlərinin imkanlarını gücləndirməklə risk qrupuna daxil olan fərdlər və ailələrlə işləyə bilmək;
- Fərdlərin, icmaların problemlərindən məlumatlı olaraq, daha geniş miqyaslı proqramların (sosial siyasətlərin) hazırlanmasında fəaliyyət göstərmək;
- Müxtəlif əhali qrupları ilə qəbul olunmuş etik prinsiplər çərçivəsində işləmək;
- Ailələr və uşaqlarla, əlilliyi olan, zorakılığa məruz qalmış şəxslərlə, maddə asılılığı olan şəxslərlə, ahıllarla çalışıb tədqiqatlar aparmaq və bütün bu qruplar üçün sosial müdafiənin təmin edilməsində ictimai müvəkkil kimi çıxış edə bilmək;
- Rifah, sosial və iqtisadi ədalətin bərqərar olmasına töhfə vermək.

Sosial iş ixtisasını bitirən məzunlar fərdi, qrup və icma səviyyələrində sərbəst sosial işçi kimi işləmək üçün tələb olunan bilik və bacarıqlara yiyələnmiş olurlar. Sosial iş ixtisasını bitirən məzunlar əhalinin müxtəlif qruplarının sosial müdafiəsini həyata keçirən dövlət və qeyri-dövlət təşkilatlarında, həmçinin müvafiq beynəlxalq təşkilatların yerli nümayəndəliklərində çalışa bilirlər. Bu təşkilatlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Sosial Müdafiə Fondu, Təhsil Nazirliyi, “SOS Uşaq Kəndləri Azərbaycan” Assosiasiyası, Azərbaycana Birgə Yardım Təşkilatı (UAFA), Birləşmiş Millətlər Təşkilatının müvafiq fondları və s. aid etmək olar. Bundan başqa sosial sahə elə bir sahədir ki, hər bir müəssisədə onun mütəxəssisinə ehtiyac var. İstər neft şirkəti olsun, istər banklar və ya digər özəl müəssisələr.

İxtisas üzrə təhsil proqramının normativ mənimsəmə müddəti 4 ildir.